**«TƏSDİQ EDİLMİŞDİR»**
Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
Əmr 026
«09» fevral 2000-cı il
Sədr _______________ H. Babayev

Xarici hüquqi və fiziki şəxslərin qiymətli kağızlar bazarında iştirakı

# Q A Y D A L A R I

1. Bu Qaydalar «Qiymətli kağızlar haqqında» Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq xarici hüquqi və fiziki şəxslərin Azərbaycan Respublikasının qiymətli kağızlar bazarında iştirakı qaydalarını müəyyən edir.

2. Xarici hüquqi və fiziki şəxslər, o cümlədən vətəndaşlığı olmayan şəxslər, xarici dövlətlər, beynəlxalq təşkilatlar (son-radan xarici investorlar) qiymətli kağızlar bazarında mövcud qanunvericilik aktlarının tələblərinə müvafiq olaraq aşağıdakı kimi iştirak edə bilərlər:

- xarici emitentlərin qiymətli kağızlarının və ya onlardan törəmələrin respublika daxilində yerləşdirilməsi, alqısı, sat-qısı, və bu əməliyyatların hər hansını həyata keçirilməsi üçün müvafiq əqdlərin bağlanması yolu ilə;

- yerli emitentlərin qiymətli kağızlarının və onlardan tö-rəmələrin xaricdə yerləşdirilməsi, alqısı, satqısı, və bu əməliy-yatların hər hansını həyata keçirilməsi üçün müvafiq əqdlərin bağlanması yolu ilə.

3. Xarici investorlar, sərmayəçi, yaxud qiymətli kağızlar bazarının peşəkar iştirakçısı kimi, birgə və ya tam xarici investora məxsus müəssisələrin yaradılması yolu ilə və ya qiymətli kağızlar bazarının peşəkar iştirakçısı ilə bağlanmış müqa-vilə əsasında qiymətli kağızlar bazarında iştirak edə bilərlər.

4. Xarici investorlar emitentləri, qiymətli kağızları, onlardan törəmələri, qiymətli kağızlar bazarının peşəkar iştirakçılarını və sairi sərbəst seçim hüququna malikdirlər.

5. Özəlləşdirilən dövlət müəscisələrinin səhmləri ilə alqı-satqı əməliyyatları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

6. Xarici investorlar qiymətli kağızlar bazarında Azərbaycan Respublikasının qanunvericilik aktlarına və bu Qaydalara müvafiq qaydada icazə verilən hər hansı fəaliyyətlə məşğul ola bilərlər.

7. Xarici investorlar dövlətin mənafelərinə toxuna bilən sahələrdə Azərbaycan Respublikasının qanunvericilik aktları ilə, Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin səlahiyyətləri çərçivəsində qiymətli kağızlar bazarının iştiraklarına qoyulmuş məhdudiyyətlərə və ya qadağalara riayət etməlidirlər.

8. Bu Qaydaları pozanlar Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məs'uliyyət daşıyırlar.

9. Bu Qaydalar təsdiq edildiyi gündən qüvvəyə minir.